**Azərbaycan musiqi mədəniyyəti tarixində öz bənzərsizliyi ilə seçilən ümumittifaq səviyyəli "Xarı bülbül" musiqi festivalı ilk dəfə 1989-cu ilin 21 may tarixində Şuşanın əsrarəngiz Cıdır düzündə keçirilib.**



*"Mənim orada ən böyük incikliyim Azərbaycan Televiziyasından oldu, çünki onlar müxtəlif bəhanələr gətirərək bu tarixi hadisəni lentə almadılar"*

# 1989-cu ildə Şuşada son "Xarı bülbül" festivalında nələr baş verib - canlı şahid 31 ildən sonra danışır...

***Binnət Hümbətoğlu:** "Nazirliyə çağırılan titullu şair və yazıçıların, alimlərin hamısı müxtəlif bəhanələrlə "Xarı bülbül" festivalına ssenari yazmaqdan imtina etdilər"*

Həmin dövrdə Mədəniyyət Nazirliyinin Elmi Mərkəzinin partkom və nazirliyin nəşriyyat şöbəsində baş redaktor (böyük redaktor) vəzifəsində çalışan və "Xarı bülbül" musiqi festivalının ssenari müəllifi olan tanınmış sənətşünas, mədəniyyətşünas, tədqiqatçı-jurnalist Binnət Hümbətoğlu 31 il bundan əvvəl birinci dəfə keçirilən "Xarı bülbül" musiqi festivalında baş verən, lakin indiyə qədər deyilməyən, yazılmayan bəzi gizlinlərə bizimlə söhbətində toxundu.

**- Binnət müəllim, "Xarı bülbül" musiqi festivalının musiqi mədəniyyəti tariximizdə xüsusi silinməz izi var. Bu festivalın keçirilməsində məqsəd nə idi? Bu festival əvvəlki illərdə də keçirilə bilərdi, amma məhz 1989-cu ildə keçirildi, bu təsadüf idi, yoxsa?**

- Xeyr, bu festivalın 1989-cu ildə keçirilməsi təsadüfi deyildi. Bunun səbəbləri vardı. Bilirsiniz ki, 1988-ci ildən başlayaraq ermənilər Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyə, tarixi ərazilərimizə sahib olmaq kimi çirkin niyyətlərini səsləndirməyə başladılar. Ermənilərin Şuşaya qarşı da əsassız iddiaları baş qaldırmağa başlamışdı. Məhz həmin dövrdə "Xarı bülbül" festivalının təsis edilməsi və onun keçirilməsinin Şuşaya salınması məsələsi gündəmə gəldi. Bu bir zərurət idi və biz o festivalı ermənilərin əsassız iddialarına cavab olaraq məhz Şuşada, Cıdır düzündə keçirdik, bununla bütün keçmiş ittifaq məkanına mesaj verdik ki, Qarabağ bizimdir, Şuşa bizim tarixi şəhərimizdir, Cıdır düzü babalarımızın yurdlarından biridir. Onu da deyim ki, "Xarı bülbül" musiqi festivalı III Ümumittifaq festivalı çərçivəsində Azərbaycan SSR Mədəniyyət Nazirliyinin təşəbbüsü və rəhbərliyi, Azərbaycan Həmkarlar İttifaqı Şurası və Azərbaycan Bəstəkarlar İttifaqının iştirakı ilə Qarabağda keçirilib. "Xarı bülbül" bir musiqi, muğam festivalı olmaqla yanaşı, həm də bir siyasi-ideoloji tədbir idi, amma bədii formada.

**- Yəqin həmin gün Cıdır düzü bir başqa aləm idi...**

- Bəli, Cıdır düzü o gün qaynar bir həyatı əks etdirirdi - musiqi ilə çələnglənmiş həyatı. Şuşa şəhər mədəni-maarif müəssisələrinin musiqi kollektivləri, Qırğızıstan, Türkmənistan, Başqırdıstan respublikalarından, Volqaboyundan gələn muğam ifaçıları, Ağdam rayonunun incəsənət ustaları, Naxçıvanın, Ağcabədi, Cəlilabad, Qasım İsmayılov (indiki Goranboy), Şəki, Şamaxı, Cəbrayıl, Dəvəçi (indiki Şabran), Salyan rayonlarının, Bakı, Gəncə şəhərlərinin muğam və musiqi ifaçıları, Şuşa pəhləvanları, Ağdaş rayonun kəndirbazları bu ecazkar həyatı öz ifaları, təqdimatları ilə bəzəyirdilər...

**- Binnət müəllim, necə oldu ki, belə bir yüksək səviyyəli festivalın ssenari müəllifi kimi Sizi seçdilər?**

- Bu festivalın keçirilməsi planlaşdırılanda respublikamızda olan bütün tanınmış xalq yazıçılarını və xalq şairlərini, alimləri ssenari yazmaq üçün Mədəniyyət Nazirliyinə çağırdılar. Mərkəzi Komitə bu işi Mədəniyyət Nazirliyinə həvalə etdiyindən, bu iş nazirlik tərəfindən həyata keçirilirdi. Ssenari yazmaq üçün nazirliyə çağırılan titullu şair və yazıçıların, alimlərin hamısı müxtəlif bəhanələrlə "Xarı bülbül" festivalına ssenari yazmaqdan imtina etdilər. Hətta onların arasında Azərbaycanın çox böyük, ünlü qələm adamları da vardı ki, onları hamımız tanıyırıq.

Bizim Elmira Əmrahqızı adlı bir gözəl jurnalistimiz vardı, onu sən də tanıyırsan. Onunla televiziyadan tanış idik, sonra onu nazirliyin ssenari şöbəsinə göndərdilər. Elmira xanım televiziya verilişlərinin ssenarisini yazmaq sahəsində peşəkar idi, amma meydan tamaşaları üçün ssenari yazmamışdı. Bir dəfə gördüm ki, bikef oturub, səbəbini soruşdum. Dedi ki, mənə bir tədbirin ssenarisini yazmaq tapşırıblar, amma bilmirəm süjeti necə qurum. Ona dəstək göstərdim, gözəl də qələmi vardı və o ssenarini hazırladı. Böyük şair və yazıçılar, alimlər festivalın ssenarisini yazmaqdan imtina etdikdən sonra nazirlik bu işi ona həvalə etmək istəyib, Elmira xanım da deyib ki, siz niyə bu işi Binnət müəllimə həvalə etmirsiniz, Azərbaycanda 3-4 nəfər meydan tamaşalarının, kütləvi bayram tamaşalarının ssenarisini yazmağı bacaran adamlardan biri odur. Bundan sonra "Xarı bülbül" musiqi festivalının ssenarisini yazmaq mənə həvalə edildi, beləliklə, ilk "Xarı bülbül" festivalının ssenarisini mən yazdım. Bu ssenarini yazmaq üçün məni Şuşaya yaradıcılıq ezamiyyətinə göndərmək istədilər, getməkdən imtina etdim, dedim ki, mən uzun müddət Şuşada yaşamışam və Şuşanın hər qarışına bələdəm, onu görə də ssenarini Bakıda yazacağam. Mən Şuşada pedaqoji təhsil almışam, 4 il orada yaşamışam, ona görə də bu şəhərin hər qarışına bələdəm. Mayın əvvəllərində Qarabağa getdik və mayın 21-də "Xarı bülbül" musiqi festivalı keçirildi.

**- Bəs orada hansı hadisələr baş verib ki, ondan geniş ictimaiyyət məlumatsızdır?**

- Mənim orada bəzi incikliklərim oldu. Mənim orada ən böyük incikliyim Azərbaycan Televiziyasından oldu, çünki onlar müxtəlif bəhanələr gətirərək bu tarixi hadisəni lentə almadılar. Söz yox ki, o vaxt bizim nazirliyin özünün video çəkmək imkanı vardı. Biz o tədbirin videosunu çəkdik.

**- Bəs Azərbaycan Televiziyası niyə "Xarı bülbül"ü çəkməkdən imtina etdi, səbəb nə idi?**

- Bu televiziyanın o vaxt festivalı çəkməyə göndərilən çəkiliş qrupu Şuşaya gəlib və çəkilişi aparmaq üçün Şuşanın raykom katibi Mikayıl Gözəlovdan pul istəyiblər.

**- Deyəsən, Mikayıl Gözəlov kabinetində güllələnmişdi...**

- Bəli. Bilirsiniz, necə gözəl insan idi, Allah rəhmət eləsin. AzTV-nin işçiləri ona deyiblər ki, bizi ermənilər daşa tuturlar, birdən maşınlarımız xəsarət alar, sınar, onun təmirinə pul lazımdır, filan. Bunların hamısını açmaq lazımdır. Mikayıl müəllim məni çağırtdırıb dedi ki, bunlar sizin həmkarlarınızdır, gedin onlarla İsa bulağında çörək yeyin. Mən də dedim ki, işim çoxdur, gedə bilmərəm. Onlar gedəndən sonra mənə Mikayıl müəllim dedi ki, bunlar məndən pul istəyirlər ki, biz Şuşaya qalxsaq, ermənilər PTS-lərə daş atıb sındıracaqlar, onları təmir etməyə pul lazımdır. Sözün açığı, Mikayıl Gözəlov da Azərbaycan Televiziyasının "Xarı bülbül"ü çəkmək üçün ondan təmənna uman əməkdaşlarına pul verməmişdi, onlar da festivalı çəkməmişdilər. Amma gərək bu səhvi etməzdilər, onların PTS-ləri, maşınları zərər çəksəydi, mütləq onlar təmir ediləcəkdi.

Bilirsiniz, o vaxt ermənilərin qadınları, qızları, uşaqları yollara çıxır, bizi söyə-söyə bizim maşınları daşa tuturdular, insanlara, maşınlara xəsarət yetirirdilər. Bizi, əslində, ermənilərin yanından ruslar keçirirdilər, amma rusların iştirakı olmadan keçəndə bizi daşlayırdılar. Ümumiyyətlə, vəhşilik ermənilərin uşağının da, qocasının da, qadınının da, qızının da mayasında, xarakterində var. Erməni hər yerdə ermənidir, harada güclüdürlərsə, orada vəhşiliklər törədirlər, harada zəifdirlərsə, orada yaltaqlanırlar. Bu toplumun xarakteri budur.

**- Ermənilər "Xarı bülbül" festivalının keçirilməsinə mane olmaq istəyirdilər?**

- Bəli. Bu festival onları çox narahat edirdi. Hətta yadımdadır ki, ermənilər yığışıb festivala Topxanadan baxırdılar. Topxana Cıdır düzü ilə üzbəüzdür.

**- Başqa hansı yaddaqalan məqamlar olub ki, onlar sizi bu gün də ağrıdır, narahat edir?**

- Birincisi, məni indiyə qədər də yandırıb göynədən, incidən o oldu ki, Azərbaycan Televiziyası Şuşada Cıdır düzündə keçirilən "Xarı bülbül" festivalını çəkmədi, o tarixi anları əbədiləşdirmədi. Onlar Şuşaya çəkiliş maşınlarını çıxarmadılar. Bu məni hələ də incidir. Digər tərəfdən də məni indiyə qədər incidən keçmiş mədəniyyət naziri Polad Bülbüloğlunun münasibəti oldu. Gəlib tədbirdə iştirak edib, yeyib-içib geri qayıtdı. Bir dəfə də olsun "Xarı bülbül"ü ərsəyə gətirən kollektivi yığıb təşəkkür etmədi. Halbuki, rəhmətlik Zakir Bağırov mədəniyyət naziri olduğu dövrdə miqyasından asılı olmayaraq, istənilən tədbirdən sonra kollektivi yığardı, pul olanda pul mükafatı verib təşəkkür edərdi, pul olmayanda da üzrxahlıq edərdi ki, bu dəfə maddi imkan yoxdur, hamınıza ürək dolusu təşəkkür edirəm. Hamı da fədai idi, bir təşəkkürə mədəniyyətə can qoyurdu.

**- Amma hər yerdə "Xarı bülbül" festivalının təşəbbüskarı kimi Polad Bülbüloğlunun adı çəkilir...**

- Qətiyyən belə deyil. Sadəcə, "Xarı bülbül" festivalı onun nazir olduğu dövrdə keçirilib.

**- Səhv etmirəmsə, sonrakı illərdə bu festival davam edib...**

- 90-cı illərdə deyəsən keçirildi, amma mən Polad Bülbüloğlunun münasibətindən sonra oradan çıxdım və sonrakı proseslərdən xəbərim olmadı. Səhv etmirəmsə, indi də keçirirlər. İndi televiziyalarda bizim festivaldan çəkdiyimiz videodan parçalar verirlər, onun da keyfiyyəti elə də yüksək deyil.

"Xarı bülbül" festivalını Ağdamın Abdal Gülablı kəndindən başladıq, Şuşada böyük tədbirimizi, yekun konserti isə Ağdamda keçirdik. Şuşada festivalda iştirak edənlərin hamısı gəlib Ağdamda toplandılar və orada konsert verdilər. Əsas tədbir isə Şuşada keçirildi. Bu tədbirdə bizim meydan tamaşası estetikasının bütün elementləri ifadə edilib. Cıdır vardı, pəhləvanların, kəndirbazların iştirakı ilə səhnələr qurulmuşdu, qurban kəsilmə mərasimi əks olunmuşdu, 7 əsas muğamımızla bağlı 7 hücrə qurulmuşdu. Bu hücrələrin içində muğam, musiqiçi dəstələri oturmuşdu.

**- Binnət müəllim, artıq Şuşa işğaldan azad edilib. "Xarı bülbül" festivalının yenidən Şuşada - Cıdır düzündə keçirilməsi ənənəsinin bərpasına necə baxırsınız?**

- Şuşanın işğaldan azad edilməsi məni sanki qırx arşın quyunun dibindən çıxarıb göyə qaldırdı. Şuşada böyük qəhrəmanlıq göstərən əsgər və zabitlərimizə öz təşəkkürümü bildirirəm, şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Əlbəttə, bütün bunlar Ali Baş Komandanımız cənab İlham Əliyevin böyük sərkərdəlik hünəri nəticəsində baş verib. Mən Ali Baş Komandanımıza Sultanım, Şahım, Xaqanım deyirəm. Mən Prezidentimizə Allahın bizə bəxş etdiyi Azadlıq Elçisi kimi baxıram.

Prezidentimiz dedi ki, Şuşanı dirçəldəcəyik, orada hər şeyi yüksək səviyyədə bərpa edəcəyik. Şuşanın dirçəlişi başa çatdıqdan sonra biz bu yüksəlişin Şuşada bayramını keçirəcəyik. Arzulayıram ki, biz həmin bayramı beynəlxalq "Xarı bülbül" muğam festivalı ilə Şuşada - Cıdır düzündə keçirək. Ümid edirəm ki, biz növbəti il Şuşada beynəlxalq "Xarı bülbül" muğam festivalını keçirəcəyik. Çünki bu bizə hava-su qədər lazımdır.

***İradə SARIYEVA***